

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Vətən müharibəsinə 1 il qalmış...

## 19 oktyabr 2019-cu il: Bakıda iğtişaşa cəhd nəyə hesablanmışdı?

**İlham Əliyev: Bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər.**

**16 oktyabr 2019-cu il**

Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
19 oktyabr 2024-cü il, şənbə
№ 193 (6779)
Qiyməti 60 qəpik

# 20 oktyabr - Zəngilan şəhəri günüdür!



Bax səh. 2




İlham Əliyev
@azpresident

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!

Translate Tweet

8:10 AM · Oct 19, 2020 · Twitter Web App

# Zəfərə 21 gün qalırdı...

Bax səh. 2

# Milli Məclisin iclasında...

Bax səh. 3

## Bank sektorunun "yaşıl maliyyə" xəritəsi



Bax səh. 3

## Diqqət İstanbula: "3+3" yenidən toplandı

**Beş ölkənin XİN başçısı bir masa arxasında...**

Bax səh. 4

## Riyazi rəqqasın sonuncu "oyunu"



Bax səh. 6

## İdeoloji mübarizədə din amili...

Müxtəlif dini konfessiyalara hörmət, ölkəmizdə həmin din nümayəndələrinin dinc yaşaması Azərbaycanda tolerantlığın səciyyəvi əlamətidir. Məlumdur ki, Azərbaycanın Şərqlə...

Bax səh. 5

## Dünya Bankının optimist ssenariləri...

Dünya Bankı (DB) qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozlarını açıqlayıb. Cari ilin sonunda Amerika və Avropanın əksər ölkələrində ÜDM-in əvvəlki illə nisbətdə...

Bax səh. 5

## Yelisey Sarayı geri çəkildi...

Yelisey Sarayı geri çəkilmək məcburiyyətində qaldı. Söhbət Fransada həbs edilən Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan şəxs kimi tanınan Kemi Sebanın azadlığa buraxılmasından gedir. Xatırladaq ki, K.Seba oktyabrın 15-də Fransa xüsusi xidmət orqanları...

Bax səh. 5

## Aİ və Körfəz Əməkdaşlıq Şurasının sammiti...

Brüsseldə keçirilən Avropa İttifaqı (Aİ) və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələri liderlərinin sammitində qlobal geosiyasi vəziyyətlə bağlı fikir ayrılığına baxmayaraq...

Bax səh. 7

## Harris "səhvini" düzəltməyə çalışır...

## Ermənistan cavab verəcək!



Bax səh. 6

Bax səh. 4

# Zəfərə 21 gün qalırdı...

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.***

**Vətən müharibəsinin 23-cü günü**


İlham Əliyev
@azpresident
Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!
Translate Tweet
8:10 AM · Oct 19, 2020 · Twitter Web App

• Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad olunub. Bu barədə Prezident İlham Əliyev tviter hesabında məlumat verib.

• Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub. Bu barədə Prezident İlham Əliyev rəsmi tviter hesabında bildirib.

• Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib.

• Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

• Cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Azərbaycan Ordusu cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsini, 2 ədəd T-72 tankını, 2 ədəd BM-21 "Qrad" YARS qurğusunu, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa toplarını və 11 avtomobil texnikasını sıradan çıxarıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Cəbrayıl və Füzuli istiqamətində düşməndən ələ keçirilən hərbi qənimətlərin videogörüntüsü yayılıb.

• Baş Prokurorluğun məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində oktyabrın 19-u saat 15:00-dək 61 mülki şəxs həlak olub, 282 nəfər xəsarət alıb, 1846 ev, 90 çoxmənzilli yaşayış binası və 341 mülki obyekt yararsız vəziyyətə düşüb.

• Düşmənin mülki əhalini atəşə tutması nəticəsində Ağdam rayonunda üç nəfər, o cümlədən Azərbaycan Televiziyasının əməkdaşı xəsarət alıb.

• Ermənistan ordusunun Xızı rayonu istiqamətində atdığı raket havada zərərsizləşdirilib.

**Vətən müharibəsinin 24-cü günü**

• Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad olunub. Prezident İlham Əliyev bununla bağlı xalqa müraciət edib.

• İşğaldan azad olunmuş Zəngilan şəhərində Azərbaycanın dövlət bayrağı ucaldılıb.

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.

• Cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS qurğusu, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib. Ordumuzun artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb, 2-ci motoatıcı alayın bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib. Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.


İlham Əliyev
@azpresident
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli,
Translate Tweet
4:01 PM · Oct 20, 2020 · Twitter Web App

• Müdafiə Nazirliyi Azərbaycan Ordusunun artilleriya bölmələrinin Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə zərbələr endirməsi ilə bağlı videogörüntülər təqdim edib.

• Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.


İlham Əliyev
@azpresident
Replying to @azpresident
Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!
Translate Tweet
4:01 PM · Oct 20, 2020 · Twitter Web App

• Müdafiə Nazirliyi məlumat verib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı uğurlu əməliyyatlar aparılıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

• Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində vurulub.

• Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya atəşləri nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edilməsinin videogörüntüsü yayımlanıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 20-si saat 12:00-dək 61 mülki şəxs həlak olub, 291 nəfər xəsarət alıb, 1941 ev, 90 çoxmənzilli yaşayış binası və 382 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Düşmənin növbəti xain hücumu nəticəsində Tərtər rayonunda iki nəfər mülki şəxs həlak olub, bir nəfər yaralanıb.

• Dövlət Sərhəd Xidmətinə üzərində "İLHAMLA İRƏLİ!" və "XUDAFƏRİN BİZİMDİR!" sözləri yazılan BTR-70M tipli zirehli nəqliyyat vasitəsi hədiyyə edilib.

**Vətən müharibəsinin 25-ci günü**

• Zəngilan rayonunun Mincivan qəsəbəsi və 13 kəndi - Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri işğaldan azad edilib. Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində məlumat verib.

• Azərbaycan Ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad edib. Prezident İlham Əliyev bu barədə özünün rəsmi tviter səhifəsində bildirib.

• Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib.

• Düşmənin 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarının və 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri canlı qüvvə və döyüş texnikası itirərək geri çəkilməyə məcbur edilib. Bölmələrimiz çoxlu sayda silah-sursatı qənimət götürüb.

• Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri Füzuli və Tərtər istiqamətlərində Ermənistan silahlı qüvvələrinə məxsus üç taktiki pilotsuz uçuş aparatını, Horadiz istiqamətində isə bir pilotsuz uçuş aparatını vurublar.


İlham Əliyev
@azpresident
Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini,
Translate Tweet
8:17 PM · Oct 21, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Replying to @azpresident
Cəbrayıl rayonunun Bələnd, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
8:17 PM · Oct 21, 2020 · Twitter Web App

• Müdafiə Nazirliyi artilleriya bölmələrimizin gecə və gündüz atışlarının, həmçinin düşmənin döyüş meydanında atıb-qaçdığı hərbi texnikaların videogörüntülərini yayıb.

• Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru sıradan çıxarılıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 21-i saat 11:00-dək 63 mülki şəxs həlak olub, 292 nəfər xəsarət alıb, 1981 ev, 90 çoxmənzilli yaşayış binası və 386 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.


İlham Əliyev
@azpresident
Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün,
Translate Tweet
8:18 PM · Oct 21, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Replying to @azpresident
Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
8:18 PM · Oct 21, 2020 · Twitter Web App

• Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər mülki obyektlərdə yanğınlar törədib.

# 20 oktyabr - Zəngilan şəhəri günüdür!

Bütün varlığı ilə Vətəninə, yurd yerlərinə bağlı olan Azərbaycan xalqı ağır məhrumiyyətlərlə dolu olan otuz illik işğal tarixi yaşayıb. 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra torpaq həsrətimizə son qoyulub.

Hər yaşayış məntəqəmizin işğal altına düşməsinin və azadlığa qovuşmasının öz tarixçəsi var. Təqvimin oktyabr ayı. İş elə gətirib ki, Azərbaycanın dilbər guşələrindən biri olan Zəngilan rayonunun işğal altına düşməsi də, işğaldan azad olunması da məhz oktyabr ayına təsadüf edir. Rayonun mənfur düşmən tərəfindən işğal altına düşməsi 1993-cü il 29 oktyabr tarixində baş vermişdi. Dörd il bundan əvvəl-2020-ci il oktyabrın 20 -də isə rayon işğaldan azad edildi. Elə Zəngilanın işğaldan azad edildiyi tarix də Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Zəngilan şəhəri günü kimi müəyyənləşdirilib.

## İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azd edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük Qələbəmizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirlməsi anlamına gəlir. Bu Qələbəni heç kəs bizə hədiyyə etməyib. Onu igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Silahlı Qüvvələrimiz Vətən müharibəsində misilsiz şücaətlər göstərərək 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında geri qaytardı. Alınmaz qala sayılan Şuşanın, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Hadrutun, Xocavəndin geri qaytarılması uğrunda gedən döyüşlərdə əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıqlar göstərdilər. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamda da vurğulandığı kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük Qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunur. Siyahını təqdim edirik:



***26 avqust - Laçın şəhəri günü,***
***4 oktyabr - Cəbrayıl şəhəri günü,***
***17 oktyabr - Füzuli şəhəri günü,***
***20 oktyabr - Zəngilan şəhəri günü,***
***25 oktyabr - Qubadlı şəhəri günü,***
***8 noyabr - Şuşa şəhəri günü,***
***20 noyabr - Ağdam şəhəri günü,***
***25 noyabr - Kəlbəcər şəhəri günü,***
***20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü.***

## Zəngilan işğaldan əvvəl

Zəngilan rayonu inzibati ərazi vahidi kimi 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, Cənubdan İran İslam Respublikası, Qərbdən Ermənistan ilə həmsərhəddir. Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Rayonun ərazisi 707 kvadratkilometr, əhalisi isə 35 mindən çox idi. İqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edirdi.

İşğal olunmazdan əvvəl bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 34 ümumtəhsil məktəbi, texniki peşə və musiqi məktəbləri, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu fəaliyyət göstərirdi. Rayonun iqtisadi potensialı kifayət qədər güclü idi. Belə ki, işğala qədər rayonda sənaye əhəmiyyətli ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vejnəli qızıl, ehtiyatları 6618 min kubmetr olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 milyon ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6024 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28943 min kubmetr təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1102 min kubmetr olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17367 min kubmetr olan Zəngilan qumçınqıl qarışığı yataqları olub. Məşhur Çinar meşələri də Zəngilan rayonunun ərazisində yerləşirdi.



27 illik işğal dövründə mənfur düşmən digər yaşayış məntəqələrimizdə olduğu kimi, Zəngilanda da bütün abidələri, evləri, mülki infrastrukturu dağıdıb, sərvətlərimizi vəhşicəsinə talan edib. Ermənilərin vandalizm əməlləri Çinar meşələrindən, Bəsitçay Dövlət Təbiət Qoruğundan da yan ötməyib. Buradakı qiymətli ağaclar qırılaraq Ermənistana daşınıb və mebel sənayesində istifadə olunub.

## İşğala məruz qalan sonuncu rayon

1988-ci ildən 1993-cü ilin oktyabrınadək düşmənin aramsız hücumlarına sinə gərən Zəngilan işğala məruz qalan sonuncu rayonumuzdur. Rayonun sakinləri bir neçə il ərzində doğma yurd yerlərini bir növ əliyalın qorudular. Respublikanın o vaxtkı rəhbərliyi rayonun müdafiəsini lazımi səviyyədə təşkil etmək qayğısına qalmırdı. İnsanların əlində yalnız gizlətdikləri kiçik silahlar, ov tüfəngləri var idi. Buna görə də qeyri-bərabər döyüşlərdə rayonun kəndləri bir-birinin ardınca işğal altına düşürdü. 1993-cü il oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olundu, bununla da Zəngilan tam mühasirə vəziyyətində qaldı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Həmin dövrdə Heydər Əliyev İran hökuməti ilə danışıqlar apardıqdan sonra Araz çayı üzərindəki bənddə su bağlandı və əhali çayı keçib xilas oldu. Heydər Əliyev öz nüfuzundan istifadə edərək İran hökumətinin razılığını almasaydı, Zəngilan əhalisi ya düşmənə əsir düşməli, ya da Arazın sularına qərq olmalıydı. Döyüşlərdə 200-dək şəhid verən Zəngilan rayonunun 44 sakini itkin düşmüş sayılır. Zəngilanın məcburi köçkün vəziyyətinə düşən sakinləri respublikanın 43 rayonunda müvəqqəti məskunlaşıblar.



## Zəngilanın yeni növrağı

44 günlük müharibə başa çatandan sonra isə işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Zəngilan rayonunun da yeni növrağı başlayıb-bərpa və quruculuq dövrü. Zəngilan rayonunda da bərpa layihəri bir neçə istiqamətdə aparılır. Əsas istiqamətlərdən biri zəruri infrastruktur yaradılmasını əhatə edir. Postmüharibə dövründə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə dəfə Zəngilana səfərə gələrək burada ayrı-ayrı layihələrin icrasına başlanılması mərasimlərinə qatılıblar. Rayonun ərazisində infrastruktur obyektlərinin tikintisi ilə yanaşı, tarixi abidələrin bərpasını əhatə edən layihələrin də icrasına start verilib. Ermənilərin törətdikləri vandalizm əməllərini kəskin qınayan Prezident İlham Əliyev bildirib ki, burada dağıdılmış bütün abidələr bərpa olunacaq.

Zəngilan rayonunun əsrarəngiz təbiətinə vurlan ziyanın aradan qaldırılması, xüsusilə də buradakı Bəsitçay qoruğunun bərpası dövlət başçısının diqqət mərkəzində saxladığı məsələdir. Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın işğaldan azad olunmuş ərazilərə səfərləri çərçivəsində Bəsitçay qoruğunda çinar ağacları əkmələri və Bəsitçaya balıq buraxmaları bu istiqamətdə atılan ilk addım oldu. 20 oktyabr 2021-ci il tarixində isə Prezident İlham Əliyev Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sənədə əsasən, qoruğun fəaliyyətinin təşkil edilməsi üçün bir sıra zəruri tədbirlərin görülməsi nəzərdə tutulur. Xatırladaq ki, Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Qoruğun ərazisində ermənilərin kəsib doğradıqları ağacların yaşı təqribən 200-300 ilə bərabər idi.

Əlamətdar haldır ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışa məhz Zəngilan rayonunda start verilib. Rayonun Ağalı kəndində müasir yanaşmalar əsasında inşa olunan ilk "Ağıllı kənd"ə artıq bir neçə mərhələdə sakinlərin köçürülməsi təmin olunub. Burada 27 il ərzində ağır məcburi köçkünlük taleyi yaşayan sakinlər üçün hər cür rahatlıqlar təmin edilib. Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1 504 nəfər). Doğma yerlərə qayıdan ağalılar bunu həyatlarının ən xoşbət anları kimi dəyərləndirirlər.

***MÜBARİZ***

**İlham Əliyev: Bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ daxili mübarizə növünə çevrilib.**

**16 oktyabr, 2019-cu il**

# Vətən müharibəsinə 1 il qalmış...

## 19 oktyabr 2019-cu il: Bakıda iğtişaşa cəhd nəyə hesablanmışdı?

Hazırda ölkəmiz noyabrda ev sahibliyi edəcək COP29 iqlim konfransına hazırlaşır. Belə bir mötəbər tədbirin ev sahibliyi hüququnun təxminən 200 dövlətin razılığı ilə ölkəmizə həvalə edilməsi Azərbaycanın və onun Liderinin artan beynəlxalq nüfuzunun əyani təsdiqidir. Dünya güclü inkişaf templərinə malik olan, eyni zamanda qlobal həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verən Azərbaycana inam və hörmət bəsləyir. Bu isə xaricdəki erməni lobbisinin sifarişlərini yerinə yetirən Azərbaycanafob dairələrin xoşuna gəlmir və onlar Azərbaycandakı "Beşinci kolon" təmsilçilərini səfərbər edərək qarayaxma kampaniyasına başlayıblar. Redikül müxalifətin də qoşulduğu bu qarayaxma kampaniyası Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən qaynaqlanır. Qərb dairələri bundan niyə əndişələnməlidirlər və onlar niyə COP29 ərəfəsində separatçılar mövzusunu yenidən gündəmə gətirməlidirlər axı?

Azərbaycan COP29 ərəfəsində genişlənən belə qarayaxma və əsassız təhdid kampaniyası ilə ilk dəfə deyil ki, üz-üzə qalır. Artıq pis bir ənənəyə çevrilib: Hər dəfə ölkədə əlamətdar hadisələr yaşananda və yaxud respublikamız hansısa beynəlxalq tədbirə ev sahibliyi etdiyi ərəfədə xaricdəki Azərbaycanafob dairələr və onların təhriki ilə daxildəki redikül müxalifət düşərgəsinin təmsilçiləri fəallaşaraq qaralama kampaniyasına start verirlər. Bundan əvvəl ölkəmiz növbəti təxribat cəhdləri ilə İkinci Qarabağ müharibəsi ərəfəsində - Vətən müharibəsinə 1 il qalmış üzləşmişdi. Tarixin bu gündə - 19 oktyabr 2019-cu ildə qondarma "Milli şura"nın mitinq keçirmək cəhdini yada salaq. O dövrdə cərəyan edən prosesləri və reallıqları təhlil etdikdə, xaricdən idarə olunan redikül müxalifətin niyə mitinq taktikasına, iğtişaşa cəhdin, xəyanətin əsl səbəbləri aydınlaşır. O dövrdə Prezident İlham Əliyev müxtəlif tribunalardan qətiyyətlə bəyan edirdi ki, Azərbaycan torpaqlarının bir qarışının da düşmənin əlində qalmasına imkan verməyəcək və ərazi bütövlüyünü istənilən yolla təmin edəcək. Dövlət başçısı belə qətiyyətli mövqe sərgiləyərkən ölkənin gücünə - iqtisadi potensialına və hərbi qüdrətinə əsaslanırdı. Ölkədə 2003-cü ildən etibarən davamlı islahatlar aparılmış, iqtisadi tərəqqi təmin edilmiş, maliyyə imkanları genişləndirilmiş və bu əsasda istənilən vəzifəni yerinə yetirməyə qadir olan ordu formalaşdırılmışdı. Əgər Ermənistan danışıqları yenə də manipulyasiya predmetinə çevirəcəkdisə, Azərbaycan özünün nəyə qadir olduğunu göstərəcəkdi. Azərbaycanafob dairələr yaxşı başa düşürdülər ki, Azərbaycan öz gücünə ərazilərini işğaldan azad etməyə qadir dövlətdir və buna artıq zəmin formalaşıb. Belə bir reallıq ortada ikən onlar ənənəvi taktikalarını işə saldılar. Buyruq qulu olan redikül müxalifətə Qərbdən müvafiq tezislər gəldi, Başda AXCP sədri Əli Kərimli və qondarma "Milli şura"nın digər təmsilçiləri olmaqla qaraguruh Azərbaycanafob dairələrin mətbəxlərində yazılan ssenarinin icrasına başladılar. Xarici qüvvələr və redikül müxalifət 19 oktyabr 2019-cu il mitinqinin permanent hala gəlməsinə nail olmaq istəyirdilər. Bununla qarşıdurma yaranacaqdı və daxili sabitliyi təmin etmək hakimiyyətin əsas işinə çevriləcəkdi. Beləliklə də, ərazi bütövlüyünün və suverenliyin təmin edilməsi məsələsi arxa plana keçəcəkdi. İğtişaşlara cəhd, xəyanət məhz buna hesablanmışdı.

Eyni zamanda, o dövrdə hakimiyyət daxilində də müəyyən arzuolunmaz proseslər izlənilirdi. Xüsusilə də bəzilərinin davamlı islahatlar kursundan, Prezidentin ciddi tələblərindən narahatlıq keçirdikləri hiss olunurdu. Buna Prezident İlham Əliyevin Özü diqqət çəkdi. Dövlətimizin başçısı 16 oktyabr 2019-cu il tarixində Onun yanında keçirilən iqtisadi müşavirədə vurğulayıb: "Onu da bildirməliyəm ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu, dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".

Bəli, heç kim - nə xarici qüvvələr, nə müxalifət təmsilçiləri, nə də hakimiyyətdəki ayağını iki başmağa qoymaq istəyənlər Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə mane ola bilmədilər. Mitinq taktikası iflasa uğradı və onun davamı gəlmədi. Eyni zamanda, ölkədə islahatlar kursu daha da dərinləşdi. Azərbaycan kənar güclərin ciddi müdaxilə cəhdlərinə baxmayaraq, ümummilli hədəflərinə çatdı - ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Qarşıda isə sarsılmaz xalq-iqtidar, xalq-Prezident həmrəyliyi şəraitində yeni-yeni ümummilli ideyaları reallaşdırmaq hədəflərinə çatmaq vəzifəsi durur.

*Mübariz ABDULLAYEV*

# Milli Məclisin iclasında...

## Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlanıb

*Nardar BAYRAMLI*

Oktyabrın 18-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 15 məsələ daxil edilib. Çıxış edən spiker Sahibə Qafarova bildirib ki, bu iclas Azərbaycan tarixində taleyüklü rol oynamış bir hadisənin ildönümünə təsadüf edir. Onun sözlərinə görə, 33 il öncə bu gün Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması xalqımızın dövlətçilik potensialının yenidən təzahür etməsi və müstəqillik arzusunun gerçəkləşməsi idi: "Son yüz ildən artıq dövrdə Azərbaycan xalqına siyasi müstəqillik imkanı iki dəfə nəsib olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması milli inkişaf tarixinin son dərəcə önəmli hadisəsidir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi inkişafında yeni mərhələ açmışdı.



Təəssüf ki, xalqımızın əsrin əvvəllərində qurduğu dövləti cəmi 23 ay yaşaya bildi. 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də əslində eyni tale yazılmışdı. Hamımız yaxşı xatırlayırıq, hörmətli həmkarlar, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz ağır problemlər qarşısında qalaraq dərin siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə düşmüşdü. Dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi. Ölkə həyatının bütün sahələrini bürüyən hərc-mərclik və özbaşınalıq real vətəndaş müharibəsi təhlükəsi törətmişdi. Belə bir şəraitdə Ermənistan silahlı qüvvələri torpaqlarımızın işğalını gündən-günə genişləndirir, bu isə destruktiv prosesləri daha da sürətləndirirdi".

**"Birlik və həmrəyliyimiz dövlətimizin müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcək"**

S.Qafarova qeyd edib ki, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyev misilsiz idarəçilik məharəti və siyasi uzaqgörənliyi, əzmkarlığı və yorulmaz səyləri nəticəsində Azərbaycanı gözləyən fəlakətlərin qarşısını almağı, dövlətin qarşısında dayanan ağır problemləri həll etməyi bacardı.

Spiker deyib ki, Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycanı zirvələrə yüksəldib: "Mən təklif edirəm ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq". Spikerin təklifi əsasında Milli Məclis adından Müstəqilliyin Bərpası Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubu ünvanlanıb.

Spiker, həmçinin Milli Məclisin nümayəndə heyətinin Tacikistan Respublikasına və İsveçrə Konfederasiyasına işgüzar səfərləri barədə də məlumat verib.

**"Azərbaycan kimi az sayda ölkələr var ki, tam müstəqil siyasət həyata keçirir"**

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq bundan da çətindir. Onun sözlərinə görə, Heydər Əliyev Azərbaycanın müstəqilliyinin dönməzliyini təmin edib. Birinci vitse-spiker deyib ki, bu gün ölkəmizə xaricdən təhdidlərin edilməsi Azərbaycan cəmiyyətini daha da birləşdirir və onun təhdidlərə qarşı immunitetini daha da möhkəmləndirir.

Azərbaycan xalqının Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəklədiyini söyləyən Əli Əhmədov əlavə edib ki, bu fakt Azərbaycan xalqının birliyini önəmli amilə çevirib: "Azərbaycan sülh proqramını açıq şəkildə bəyan edib. Ölkəmiz kimlərinsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq sülh siyasətini həyata keçirməkdə davam edir".

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov isə bildirib ki, dünyada təxminən 5 min xalq olsa da, onlarin 200-nün müstəqil dövləti var: "Bu dövlətlərin bir çoxu Ermənistan kimi kimlərinsə yedəyində gedir. Lakin Azərbaycan kimi az sayda ölkələr var ki, tam müstəqil siyasət həyata keçirir".

İclasda həmçinin vitse-spikerlər Rafael Hüseynov və Musa Qasımlı, komitə sədri Zahid Oruc, deputatlar Elman Nəsirov, Kamal Cəfərov, Aqil Abbas, Vüqar Bayramov, Ceyhun Məmmədov, Razi Nurullayev, Sahib Alıyev və İlham Məmmədov çıxış edərək müstəqillik illərində Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs ediblər.

Daha sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda (üçüncü oxunuş) dəyişiklik edilməsi barədə məlumat verib. Sonra qanun qəbul edilib.

**Azərbaycanda 1400 bələdiyyə birləşəcək**

"Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" qanun barəsində də komitə sədri Siyavuş Novruzov məlumat verib. Onun sözlərinə görə, Azərbaycanda 1400 bələdiyyə birləşəcək. Birləşmə nəticəsində ölkədə bələdiyyələrin sayı 1606-da 685-ə düşəcək. Müzakirələrdən sonra qanun layihəsi qəbul olunub.

Millət vəkilləri həmçinin, "Turizm haqqında" qanunda, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və gündəlikdə olan digər qanunlarda dəyişikliklər ediblər.

İclasda ən son "Torpaq icarəsi haqqında" qanunda dəyişikliklərin edilməsi müzakirə olunub. Bu qanun layihə haqqında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məlumat verib. Dəyişikliyə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kənd və qəsəbə sakinlərinə (birillik və çoxillik əkinlərin aparılması üçün) güzəştli şərtlərlə icarəyə veriləcək. Layihəyə əsasən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqlar sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada investisiya müsabiqələri vasitəsilə icarəyə veriləcək.

Müzakirələr zamanı çıxış edən millət vəkili Bəxtiyar Əliyev bu qanunun işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafına töhfə verəcəyini bildirib. O, həmçinin qeyd edib ki, həmin ərazilərə qayıdan əhaliyə "Torpaq islahatı haqqında" qanuna uyğun olaraq gələcəkdə pay torpaqları da veriləcək. Millət vəkilləri Fazil Mustafa və Bəhruz Məhərrəmovun çıxışlarından sonra sənəd səs qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının oktyabrın 22-də keçiriləcəyini deyib.

# Bank sektorunun "yaşıl maliyyə" xəritəsi

## Yaşıl Maliyyə Taksonomiyası sənədi maliyyə bazarlarında yaşıl ekosistemin qurulmasına töhfə verəcək

Mərkəzi Bankın sədri Taleh Kazımov Bakıda keçirilən "Yaşıl Maliyyə və Dayanıqlı İnkişaf Forumu"nda bildirib ki, 2023-2026-cı illər üzrə dair Dayanıqlı Maliyyə Yol Xəritəsində müəyyən edilmiş əsas hədəflərdən biri Yaşıl Maliyyə Taksonomiyasının hazırlanmasıdır. MB müvafiq dövlət qurumları, sənaye assosiasiyaları, maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və digər tərəfdaşlarla birlikdə geniş məsləhətləşmələr təşkil edərək onların rəy və təklifləri əsasında taksonomiya sənədini yekunlaşdırıb. Yaxın günlərdə hökumətə təqdim ediləcək taksonomiyanın əsas prioriteti iqlim dəyişikliyinin təsirinin azaldılması hədəflərinə uyğun olaraq maliyyə bazarlarında yaşıl ekosisteminin qurulması və mühafizəsi ilə bağlı tədbirləri reallaşdırmaqdır. Bu məqsədlə iqlimlə bağlı risklərin idarə edilməsi üzrə təlimatlar maliyyə ediləcək və təlimatlar vasitəsilə ekoloji, sosial və idarəetmə amillərinin bankların strategiyalarına və idarəetmə çərçivələrinə inteqrasiyası təmin olunacaq.

### Banklar üçün məsuliyyətli dövr başlayır

Yaşıl Maliyyə Taksonomiyası dünya ölkələrinin maliyyə bazarı iştirakçılarının geniş yer verdiyi müasir maliyyə alətlərinin ölkəmizdə tətbiqidir. "Yaşıl maliyyə" investisiyaları adlanan bu alətlər COP çağırışlarından meydana gələn yaşıl prinsiplərə əsaslanır və ekoloji fayda verməklə, həm də dayanıqlı iqtisadiyyatın inkişafına kömək edir.

Məlumdur ki, Azərbaycan hökuməti 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz azaltmağı qarşısına məqsəd qoyub. Həmin hədəflərə çatmaqda bank sektorunun ekoloji məsuliyyəti də əsas məsələlərdən biridir. Bank sektoru bu məsuliyyəti nəzərə alaraq dayanıqlı bankçılıq meyarlarına uyğun ekoloji riskləri azaldan maliyyələşmə sxemləri hazırlayıb. Azərbaycan Banklar Assosiasiyası (ABA) tərəfindən hazırlanmış ətraf mühit, sosial və idarəetmə (ESG) strategiyası 2024-2030-cu illəri əhatə etməklə, dayanıqlı maliyyə imkanları, ESG məlumatlılığının artırılması və ESG imkanlarının təkmilləşdirilməsi və davamlı maliyyə təchizatının yaradılmasını nəzərdə tutur.

### "Yaşıl səhm"lərin dəyəri 230 milyard dolları ötüb

"Yaşıl maliyyə" alətlərindən biri olan "yaşıl səhm"lər də ekoloji cəhətdən təmiz texnologiyaların genişləndirilməsi və iqlim dəyişikliyinin azaldılması istiqamətində emissiya edilən səmərəli maliyyə alətidir. Beynəlxalq Maliyyə Korporasiyasının hesabatında "yaşıl səhm"lərin son 4 ildə emissiyasının 230 milyard dolları ötdüyü qeyd olunur. Hazırda Dunya Bankı "yaşıl istiqraz" və "yaşıl səhm" buraxılışında əsas maliyyə institut və emitent kimi fəallığını daha çox artırmaqdadır. Bank son 5 ildə 200 milyard dollara yaxın istiqraz emissiya edib. Həmçinin, Avropa Komissiyası "yaşıl" istiqrazlar"ın emissiyasına 20 milyard avroya vəsait xərcləyib.

Bütün bunları nəzərə aldıqda, Azərbaycanın COP29 ili çərçivəsində beynəlxalq institutlarla, o cümlədən Dünya Bankı və Avopa Komissiyası ilə əməkdaşlığı qeyd edilən "yaşıl maliyyə" alətlərinin ölkəmizə gətirilməsi üçün əlverişli imkanlar yaradır.

### 2060-cı ilə qədər 44 milyard dollar...

Azərbaycan Banklar Assosiasiyasının (ABA) sədri Zakir Nuriyevin fikrincə, karbon emissiyalarının azaldılmasına xidmət edən həmin maliyyə təminatların qlobal səviyyədə yaradılması üçün yüz milyardlarla dollar lazımdır. Araşdırmalara görə, 2030-cu ilədək illik olaraq 8-9 trilyon dollar, 2050-ci ilə qədər isə illik 10-11 trilyon dollar iqlim maliyyəsi tələb olunur. Ümumilikdə isə "netto sıfır" üçün təxminən 270 trilyon dollar lazımdır. Azərbaycan qlobal alyansın üzvü kimi "yaşıl iqtisadiyyat" quruculuğunda "yaşıl maliyyə"nin əhəmiyyətinə xüsusi önəm verir və dayanıqlı maliyyə imkanlarını səfərbər etməyə çalışır. Qiymətləndirmələrə əsasən, Azərbaycanın karbon emissiyalarını azaltmaq üçün 2060-cı ilə qədər 44 milyard dollar məbləğində investisiyaya ehtiyacı var. Bu investisiyaların əhəmiyyətli bir hissəsi özəl sektorun, eləcə də bank sektorunun maliyyə təminatı ilə təmin edilə bilər.

Ona görə də, yaxın illərdə bank sektoru fəaliyyətini daha çox "yaşıl maliyyə" təminatlarına yönəltməli olacaq. "Yaşıl maliyyə" arxitekturasının qurulması isə böyük həcmdə sərmayələr tələb edir. Hazırda dünya bank sektoru bu vasaitləri müxtəlif alətlərlə təmin etməyə çalışır. Həmin alətlərdən biri "yaşıl istiqrazlar"dır. Azərbaycanın bank sistemi üçün də bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. "Yaşıl istiqrazlar" maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər nov xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf muhitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha əlbehdicidir. Ekoloji və iqlim layihələrini dəstəkləmək üçün sabit gəlirli bir maliyyə aləti olan "yaşıl istiqraz" enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizədə öz səmətəsini verməkdədir. Avropa Birliyi ölkələrindən Finlandiya, İsveçrə, Estoniya, Niderland, İrlandiya, Norveç və digərləri davamlı kənd təsərrüfatı, ekosistemlərin qorunması, təmiz nəqliyyat, davamlı su idarəçiliyinə yönəlmiş layihələri bu qiymətli kağız vasitəsilə maliyyələşdirir.



### Sığorta sektoru da "yaşıllaşdırılacaq"...

Həmçinin, yeni iqlim çağırışları fonunda sığorta sektorunun da "yaşıl maliyyə" prinsiplərinə uyğunlaşdırılması nəzərdə tutulur. Sığorta şirkətlərinin biznes və digər sektorlarla ekoloji layihələr üzrə əməkdaşlığının artırılması və sığorta təminatının yaxşılaşdırılması üçün təşviqedici addımlar atılacaq. Xüsusilə də iqlim riskinin sığortası, eko-avtosığorta və kənd təsərrüfatı sığortası kimi seqmentlərin inkişafına dəstək veriləcək, sığorta xidmətləri və paketlərinin təbliqi genişlənəcək. "Yaşıl sığorta" alətlərinin tətbiqi ilə bağlı xarici şirkətlərlə aparılan danışıqlar bu sahədə yaxın dövrdə yeni sığorta məhsullarının tətbiqinə yol aça bilər.

Beləliklə, Mərkəzi Bankın hazırladığı Yaşıl Maliyyə Taksonomiyası sənədi ölkəmizin maliyyə sisteminin "yaşıllaşdırılmasında" mühüm rol oynamaqla güclü ekosistemin qurulmasına imkan verəcək.

*ELBRUS*

# Diqqət İstanbula: “3+3” yenidən toplandı

## Beş ölkənin XİN başçısı bir masa arxasında...

## Bakı regionun gələcək iqtisadi-siyasi inkişafı və təhlükəsizliyin təmini prosesində “açar” ölkədir

Post-müharibə dövrünün reallıqları arasında münasibətlərin normallaşması, bölgədə yeni iqtisadi sistemin qurulması kimi faktorlar da yer almaqdadır. Bu istiqamətdə 4 ildir ki, davam edən və özünün məntiqi nəticəsinə yaxınlaşan proses müsbət trayektoriyalı inkişaf xəttinə malikdir. Cənubi Qafqazın isə stabil və sabit ünvan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması bütövlükdə region üçün yeni perspektiv deməkdir. Azərbaycanın yürütdüyü siyasətin hədəfi məhz budur - əsas prioritetimiz Cənubi Qafqaz üçün yeni inkişaf tempi qazandırmaqdır. Sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan yeni iqtisadi-siyasi güc mərkəzinin formalaşdırılması üçün əməkdaşlıq platforması təklif edir, bu yolda ortaya çıxan maneələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edir.

### Əməkdaşlıq təkmilləşdirilir: 3+3-ün üstünlükləri...

Sülhlə paralel inkişaf edən bu mərhələ regiondakı indiyə qədər formalaşan əməkdaşlıq platformalarını daha da təkmilləşdirir - bugünədək bölgədə formalaşdırılan Azərbaycan - Gürcüstan - Türkiyə, Rusiya - İran - Azərbaycan və bu kimi üçlü, Azərbaycan - İran - Türkiyə - Rusiya kimi dördlü əməkdaşlıq platformaları həm miqyasına, həm də hədəfələrinə görə genişlənir. “3+3” formatı kimi müəyyənləşdirilən və Azərbaycan ilə Türkiyənin təşəbbüsü ilə həyata keçiçrilən platforma isə əsasən region problemlərinin regiondan kənar ölkələrin iştirakı olmadan və bölgə ölkələrinin iştirakı ilə həll olunmasını, regional əməkdaşlıqların möhkəmləndirilməsini özündə ehtiva edir. Qeyd edək ki, “3+3” formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsindən 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. İkinci tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşdı. Moskva toplantısında iqtisadiyyat, energetika, ticarət, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, təbii ehtiyatlar, təhsil, mədəniyyət, turizm kimi sahələr üzrə əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdisə, Tehranda baş tutan beştərəfli görüşdə regional kommunikasiya məsələsi də müzakirə predmetinə çevrilmişdi.

### İstanbuldan çağırış: istədiyi zaman bu platformaya qoşula bilər...

Bu formatda növbəti - üçüncü görüş isə dünən Türkiyədə baş tutdu. Xəbər verildiyi kimi, İstanbulda Cənubi Qafqaz üzrə Regional Əməkdaşlıq Platformasının (3+3) üçüncü iclası keçirilib. İclasda Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan və İranın XİN rəhbərləri Hakan Fidan, Ceyhun Bayramov, Sergey Lavrov, Ararat Mirzoyan və Abbas Arakçi iştirak ediblər. Tədbirdən əvvəl mediaya açıqlama verən Hakan Fidan bildirib ki, İkinci Qarabağ müharibəsindən qısa müddət sonra üçtərəfli Bəyanatın imzalandığı həftələrdə irəli sürülən Cənubi Qafqaz üzrə Regional Əməkdaşlıq Platforması bölgəni yaxından maraqlandıran problemlərin həllinə xidmət edir. “Bölgənin problemlərini ən yaxşı o regionun dövlətlərinin bildiyinə və həll edə biləcəyinə inanırıq. Belə ki, bu baxışımızın təzahürü olaraq toplantımızın nəticələrinə dair birgə bəyanat qəbul etməyi düşünürük”, - deyən nazir qeyd edib ki, platformanın adının 3+3 olmasına baxmayaraq, təəssüf ki, bugünkü görüşdə tərəflərdən biri iştirak etmir. Yaxın qonşumuz istədiyi zaman bu platformaya qoşula bilər”.




### Müzakirə predmetləri: iqtisadi əməkdaşlıq üçün sülh mühiti...

Qeyd edək ki, bu format bölgədə sülhün yaranması üçün formalaşdırılmayıb - onun missiyası iqtisadi əməkdaşlıq platforması təşkil etmək, bütövlükdə bölgənin maraqlarını özündə ehtiva edən addımların atılmasını təşviq etməkdir. Bu mənada, siyasi analitiklər analoji toplantılarda sülh və ya münasibətlərin normallaşması ilə bağlı müzakirələrin keçirilməməsini anlaşılan hesab edir. Danılmaz həqiqətdir ki, regionda iqtisadi münasibətlərin inkişafı və əməkdaşlığın möhkəmləndirilməsi üçün ən vacib şərtlərdən biri məhz Ermənistanın öz qonşuları ilə münasibətlərini sülh və ədalət çərçivəsində qurmasına əsaslanır. Rəsmi İrəvan anlamalıdır ki, indiki halda iqtisadi inkişaf, regional əməkdaşlıq, qarşılıqlı anlaşma onların siyasi müstəqilliyini də təmin etmək iqtidarındadır. Əks halda, Ermənistan bütövlükdə siyasi-iqtisadi dalan olmaqdan xilas ola bilməyəcək. İstanbul toplantısı da məhz bu mənada xüsusi əhəmiyyət daşıyır, streotiplərin dağıdılması üçün əsas məqamlardan sayılır.

### “3+3”ün maraq dairəsi: qlobal diqqət Qafqaza yönəlib...

Bu seriyadan olan görüşlərin iqtisadi nəticələri isə daha böyük coğrafiya üçün maraq və əhəmiyyət kəsb edir. Çünki Cənubi Qafqazda yaranan əməkdaşlıq platformalarının miqyası yalnız 6-lıq ölkələri ilə məhdudlaşmır. Bu və ya digər şəkildə TDT, BRICS, ŞƏT, hətta Avropa Birliyinin diqqətini özünə cəlb edən bu əməkdaşlıq müstəvisinin əhəmiyyəti böyük ölçü ilə qiymətləndirilir - bu formatın uğurlu sferaya qədəm qoyması özlüyündə Zəngəzur dəhlizinin reallaşmasını, münasibətlərin normallaşmasını, bölgənin yeni iqtisadi trendə çevrilməsini və beynəlxalq tranzit qovşağa transformasiyasını gerçəkləşdirir. Bu baxımdan, gərgin siyasi mövcudiyyətdə platformanın irəliyə atdığı hər bir addım böyük bir region üçün müsbət dividendlər vəd edir.

Azərbaycan isə bütün hallarda istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə qlobal səmərəsini düşünür - ölkəmiz üçün bölgənin ümumi inkişaf tempinin yüksəlməsi əsas hədəfdir. Məhz ölkəmizin səyi nəticəsində Cənubi Qafqaz yeni iqtisadi-siyasi nizamın ən mühüm elementlərindən biri qismində çıxış edir. Həm Şərqin, həm də Qərbin geosiyasi maraq dairəsində olan coğrafiyamızı “vazkeçilməz” edən məhz burada yaradılan sabitlik faktorudur. Azərbaycanın iradəsi ilə qətiləşən sabitlik isə iqtisadi əməkdaşlığın əsas təməl prinsiplərindən biri qismində çıxış edir.

### Regional təhlükəsizlik: Bakı bölgə üçün sabitləşdirici faktordur...

Yuxarıda toxunulan məsələlər arasında regiondakı siyasi vəziyyətə təsadüfən toxunmadıq. Şərq-Qərb, Şimal-Cənub dəhlizlərinin qovşağında yerləşən Azərbaycan bütün mənalarda bölgə üçün birləşdirici və sabitləşdirici faktor kimi çıxış edir. Bu gün Yaxın və Orta Şərqdən üzü Türkiyə, İran, hətta Cənubi Qafqaza doğru irəliləyən hərbi kataklizmlərin qarşısının alınmasında Azərbaycan faktoru mühüm istinad nöqtəsi sayılır - özünün xarici siyasət kursunda yalnız əməkdaşlığı əsas götürən, hərbi qarşıdurmalarda neytrallığını qoruyan və bütün ölkələrlə yaxın münasibətə üstünlük verən Azərbaycan bu tarixi-regional gərginliyin aradan qalxması üçün ən real və potensial “açar” rolunu oynayacaq ölkədir. Bütün tərəflərlə yaxın münasibətlərə malik Azərbaycan bölgənin gələcək təhlükəsizliyi üçün seçilmiş ünvandır - anlaşılmazlıqların aradan qalxmasında, dialoqların qurulmasında Bakının iştirakı həlledicidir.

### Gürcüstan nümunəsi: İrəvan ayıq başla düşünməlidir...

Hakan Fidan salamlama nitqində əvvəlki iki görüşdə də iştirak etməyən Gürcüstan haqqında “yaxın qonşumuz istədiyi zaman bu platformaya qoşula bilər” deyə bildirib. Bu, Tbilisinin də Cənubi Qafqazın gələcək əməkdaşlıq formatına qoşulması perspektivinin böyük olduğunu göstərir. Əgər Moskva və Tehran tədbirlərində belə bir çağırış səslənməmişdisə və İstanbuldan Gürcüstana çağırış edilirsə, demək ki, perspektivdə buna inam var. Bir zamanlar Qərbin müxtəlif oyunları nəticəsində bölgəsəl layihələrdən yayındırılan Tbilisinin bir neçə gündən sonra baş tutacaq parlament seçkilərinin ardından yeni siyasi gündəm yaradacağı şübhəsizdir - artıq Qərb onu gözləyən “təhlükəni” görür və bunun qarşısını almaq üçün müxtəlif variantlara əl atır. Təhdidlərə əl atılır, sanksiyalar gündəmə gətirilir - Gürcüstan isə bütün bunlara məhəl qoymaraq özünün milli maraqlarına əsaslandığını bildirir. Əslində yaranan bu mənzərə başqa dövlətlər üçün, xüsusilə Ermənistan üçün də nümunə olmalıdır - bu gün Qərbin müxtəlif destruktiv əməllərində vasitə kimi istifadə olunan İrəvan anlamalıdır ki, inkişafın əsas düsturu məhz regional əməkdaşlığın inkişaf etdirilməsidir. “3+3” formatı isə bu yöndə ən mühüm yollardan biridir...

**_Pərviz SADAYOĞLU_**

*Partiya xəbərləri*

# “Milli-mənəvi dəyərlərimiz sərhəd tanımayan təhlükəyə qarşı ən güclü silahdır”

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, “Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq oktyabrın 18-də Qazax şəhərində “Milli-mənəvi dəyərlərimiz sərhəd tanımayan təhlükəyə qarşı ən güclü silahdır” mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Qazax şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Qazax rayonu Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Qeyd olunub ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amildir. Diqqətə çatdırılıb ki, bu problemlə mübarizədə bir çox amil mühüm əhəmiyyət daşıyır. “Onlardan biri də milli-mənəvi dəyərlərimizdir. Çünki dəyərlərimizə sadiq gənc nəslin bu cür zərərli vərdişlərdən uzaq olması təbii qanunauyğunluqdur”,- deyə vurğulanıb.




Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənən “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın bu problemlə sistemli mübarizə aparılması baxımından önəmi nəzərə çatdırılıb.

Sonra tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Ermənistan cavab verəcək!

## İrəvanın törətdiyi ekofəlakətlərlə bağlı faktlar beynəlxalq məhkəmədədir

Ermənistan 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlamaqla yanaşı, mədəni-mənəvi sərvətlərimizə qarşı da təcavüzkar siyasət yürüdüb. Ölkəmizə vurulan maddi və mənəvi ziyanın miqyası isə ölçüyəgəlməzdir - vaxtilə işğal altında olmuş 11 min kvadratkilometrdən artıq ərazilərimizin hər addımında bu vəhşiliyin, vandalizmin, tarixi saxtalaşdırmaq, ekosistemi sıradan çıxarmaq cəhdlərinin izinə rast gəlmək mümkündür. İşğal dövründə rayonlarımız və şəhərlərimiz kütləvi şəkildə dağıdılıb viran qoyulan zaman vəhşi təbiətə də köklü ziyanlar vurulub: meşələr qırılıb, çaylara zəhərli maddələr axıdılıb, fauna və flora vəhşi münasibətə məruz qalıb. Eyni münasibət maddi tarixi dəyərlərə qarşı da nümayiş etdirilib - işğal altında olan ərazilərdəki 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb...

İşğalçı üzərində qətiyyətli qələbə ilə Azərbaycan bu ədalətsizliyə də son qoydu. Şəhər və kəndlərimiz kimi təbii sərvətlərimiz, təbiətimiz də işğaldan azad olundu. Amma işğal illərində Azərbaycan təbiətinə vurulan ziyanın da miqyası böyükdür - Ermənisan mütləq şəkildə bunun cavabını verməli, ölkəmizə dəyən ziyan ödənilməlidir.

### Azərbaycan iddialar qaldırıb...

Artıq bu prosesə uzun müddətdir ki, start verilib. Xatırladaq ki, Haaqa Arbitraj Məhkəməsinə 2023-cü ilin yanvarında təqdim edilən ilk iddia vəhşi təbiətin və təbii mühitin mühafizəsi haqqında Bern Konvensiyası çərçivəsindədir. Azərbaycan BMT-nin 2022-ci il hesabatını da sübut kimi göstərib ki, Ermənistan meşələri qırıb.

Ötən il fevral ayının 27-də isə Azərbaycan Ermənistanın Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn prinsiplərini pozmasına əsasən kompensasiya tələbi ilə arbitraj prosesinə başlamışdı. Bu ilin yanvarında isə Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında Enerji Xartiyası Müqaviləsinə əsasən Azərbaycanın Ermənistana qarşı qaldırdığı dövlətlərarası arbitraj çərçivəsində prosessual iclas keçirilmişdi. Azərbaycanın arbitraj bildirişində, Ermənistanın 30 ilə yaxın qanunsuz işğal etdiyi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ bölgəsində yerləşən enerji resursları üzərində ölkəmizin suveren hüquqlarını tanımaqdan və onlara hörmətdən imtina edərək, beynəlxalq öhdəliklərini pozduğu izah edilirdi.

Yeri gəlmişkən, Azərbaycan Haaqa Daimi Arbitraj Məhkəməsinə Ermənistana qarşı növbəti 2 dövlətlərarası arbitraj iddiası təqdim edib. Bu barədə beynəlxalq arbitraj üzrə erməni ekspert Sərkis Qriqoryan deyib. Onun sözlərinə görə, Azərbaycanın təqdim etdiyi işlər çərçivəsində artıq arbitraj məhkəmələri təyin edilib və sədrləri məlumdur. Təsdiqlənmiş qrafikə əsasən, 2027-ci ilin əvvəlində işlər yekunlaşmalıdır. “Artıq iki iş üzrə ilk məhkəmə iclası keçirilib. Hazırda sübutlar, şahid ifadələri, ekspert rəyləri və s. daxil olmaqla, hər iki iş üzrə proses davam etdirilir”, - o deyib və əlavə edib ki, iddiaların məxfiliyi hələ açılmayıb. Məlumatlara görə, Azərbaycan iddiasında Qarabağda ətraf mühitin və biomüxtəlifliyin məhvinə görə Ermənistanın məsuliyyət daşıdığını bildirib.



Qeyd edək ki, Haaqa Daimi Arbitraj Məhkəməsi hökumətlərarası təşkilatdır. Bu qurum ənənəvi mənada məhkəmə deyil - üzv dövlətlər, beynəlxalq təşkilatlar və ya özəl tərəflər arasındakı beynəlxalq müqavilələrdən irəli gələn mübahisələri həll etmək üçün arbitraj məhkəməsi xidmətlərini göstərir. Fəaliyyət sferasında isə instansiyaları ərazi və dəniz sərhədləri, suverenlik, insan hüquqları, beynəlxalq sərmayə, beynəlxalq və regional ticarətlə əlaqəli bir sıra hüquqi məsələləri əhatə edir. 1899-cu ildə Rusiya İmperatoru II Nikolayın təşəbbüsü ilə çağırılan birinci Haaqa Sülh Konfransının qərarı ilə yaradılmış bu məhkəmə beynəlxalq mübahisələrin həlli üzrə “ən qədim təşkilat” hesab edilir. 1913-cü ildə Endryu Karneqinin ianələri ilə Haaqada xüsusi olaraq tikilmiş Sülh Sarayında yerləşir. Daimi Arbitraj Məhkəməsini bəzən eyni binada yerləşdiyi Beynəlxalq Ədalət Məhkəməsi ilə qarışdırırlar - amma Daimi Arbitraj Məhkəməsi 1993-cü ildən bəri BMT Baş Assambleyasında müşahidəçi statusuna sahib olmasına baxmayaraq BMT sistemini təmsil etmir.

### Arbitraj Məhkəməsi nədir?

Vurğulayaq ki, 100-dən çox dövlət məhkəmənin üzvüdür. Hakimlərə gəldikdə isə, hər bir dövlət məhkəməyə beynəlxalq hüquq üzrə 4-ə qədər nüfuzlu mütəxəssis təyin edə bilər. Palatanın Katibliyi belə hakimlərin siyahısını formalaşdırır. Mübahisə yarandığı zaman dövlətlərə konkret işə baxılması üçün arbitrlar seçmək hüququ verrilir. Beynəlxalq Büro Daimi Arbitraj məhkəməsi katibliyidir və ona Baş katib rəhbərlik edir.

### Ermənistanın yaratdığı ekoloji böhran...

Beləliklə, Azərbaycan bu addımı ilə həm də Ermənistanın törətdiyi və 30 il davam etdirdiyi humanitar fəlakət və ekoloji böhranla bağlı dünya ictimaiyyətini məlumatlandırmaq, beynəlxalq təşkilatlarda müvafiq sənədlərin qəbul edilməsinə nail olmaq istiqamətində davamlı tədbirlər görür. İşğal faktının aradan qalxması nəticəsində ortaya çıxan faktlar beynəlxalq instansiyalara təqdim olunur. Bu faktı təsdiqləyən çoxsaylı sənədlər, o cümlədən də “Azərkosmos”un təqdim etdiyi fotolar mövcuddur - bu fotolarda aydın şəkildə görünür ki, bəhs olunan ərazilərdə işğaladək və işğaldan sonra nə qədər sahə meşələrin altındadır. Verilən məlumatlara görə, ermənilər işğal dövründə xüsusilə Kəlbəcər, Laçın və Zəngilanda 60 min hektara yaxın meşə fondunu məhv ediblər. Paralel olaraq erməni işğalı dövründə Qarabağın zəngin su ehtiyatları mənimsənilib, istismar olunub. Mənfur düşmən torpaqlarımızı işğal altına saxladığı dövrdə həmin ərazilərə yaxın regionlarda yaşayan vətəndaşların sudan istifadəsi demək olar ki, mümkünsüz olub. Təsadüfi deyil ki, hələ 2012-ci ildə ermənilərin və fransızların ciddi müqavimətinə baxmayaraq AŞPA-nın Parisdə keçirilən tədbirində Bosniya və Hersoqovinadan olan deputat Milisa Markoviçin “Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi” məruzəsi müzakirə olunaraq qəbul edilmişdi” 44 günlük Vətən müharibəsindəki qələbə nəticəsində işğaldan azad olunmuş ərazilərdə 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı yarandı. Ermənistanın isə törətdiyi vandalizm, cinayət aktlarına görə cavab verəcəyi gün uzaqda deyil...

**_P.İSMAYILOV_**

# Riyazi rəqqasın sonuncu "oyunu"

## Qərb üçün "Şərq qapısı" - ideoloji üstünlük, hərbi ekspansiya...

Artıq bir neçə ildir beynəlxalq leksikona transfer olunmuş "kollektiv Qərb" anlayışı özündə siyasi, iqtisadi və hərbi meyarları əks etdirməkdədir. Fikirləşməyin ki, ideoloji prinsiplər yaddan çıxıb, əsla - sadəcə, ideoloji əsaslandırma fərqli regionlara, hətta fərqli ölkələrə nəzərən dəyişkən xarakterlidir. Məsələn, Avropaya nəzərən ideoloji əsaslandırmanın nüvəsini ABŞ tərəfindən irəliyə sürülən və şərti olaraq "Demokratiya yürüşü" adlandırılan tezislər təşkil edirsə, Asiya tamam fərqli durumu yaşamağa məhkum olub. Afrika daha fərqli situasiyadadır.

Bu gün siyasi fəhmlə Mərkəzi Avropada baş verənlərə diqqət yetirsək, bunun açıq şahidi ola bilərik. Əsrlər öncə "müqəddəs müharibə" axtarışında olan Qərb özünün hərəkət istiqamətini yüngül şəkildə "sağa" meyilləndirib - yox, bu "sağçı" ideoloji

### Türkiyənin narahatlığı: sərhəddəki təhlükə...

baxış kimi də dəyərləndirilməməlidir. Sadəcə olaraq Qərb adətən naqolay fəaliyyətini "sağ" çiyni üzərindən aşırır - özü də münaqişələrin mərkəzində deyil, sağında yer almağa üstünlük verir...

### Yeni əsrin yeni planı: parçala, amma öldürmə...

Sirr deyil ki, Qərbin "qlobal müharibə" planları XXI əsrlə yaşıddır. XX əsrdə baş verənlər hazırlıq mərhələsi xarakteri daşıyıb. Əsaslandırmasını təqdim etmək mümkündür:

- BMT və başqa təşkilatlar görüntü xatirinə də olsa fəaliyyətində bitərəfliyi qorumağa çalışırdı;
- Terrorla mübarizə müstəvisində əməkdaşlıqların təbliğatı aparılırdı;
- Beynəlxalq qınaq kodeks olaraq qəbul edilirdi;
- Qarşı tərəfin iddiası gücünə mütənasib olmasa da, dinlənilirdi - məsələn XX əsrdə dəfələrlə təzyiqə məruz qalan və azadlıq istəyən ölkələrin liderlərinin BMT kürsüsündən radikal ittihamlarını eşitmişik.

Hazırkı dövrdə isə:

- Güc əsas tərəzi, ölçü meyarıdır;
- Vahid xətlə hesablaşmamaq "qlobal xəyanət" sayılır;
- Oxlar açıq hədəflərə atılsa da, əslində qapalı hədəflərə doğru tuşlanıb.

Sonuncu tezis hazırkı beynəlxalq proseslərin ən mühüm detalizasiyasını təşkil etməkdədir. Başqa sözlə, "parçala, hökm sür" ideologiyasının yeni abreviaturada açılışı "parçala, amma öldürmə" kimi oxunur...

Məsələn, illərdir Yaxın Şərqdə "gərginlik" fonunda davam edən gedişat artıq müharibə statusunu qazanmaqdadır. Daha doğrusu, qazanıb - Livan, Suriya, İraq, hətta İran öz sərhədlərində "atəş" səslərini eşidir. Müharibənin sərhəddi genişləndikcə təhlükənin dərəcəsi də artır. Belə olan təqdirdə niyə "sülh" uğrunda əsl fəaliyyətə başlanılmır? Niyə görüntü xatirinə də olsa, BMT "qaşlarını çatmır"?

Səbəb bəlli, hədəf isə... Hədəf də bəllidir. Qərb bəlkə də 10 əsr öncə başladığı planını davam etdirir. Məqsəd işğal deyil - məqsəd dağıtmaq, inkişafdan saxlamaq, ətrafa hədə-qorxu, təhlükə saçmaqdır. Məqsəd işğal olsaydı, ən azından ötən yüzilliyin ortasından başlanan bu silahlı mübarizə bu və ya digər şəkildə yekunlaşdırılardı - halbuki təxminən BMT-nin yaranması ilə həmyaşıd olan İsrail - Fələstin mübarizəsinin məntiqi yekunun ştrixləri hamı üçün bəlli olsa da, real yekunu görünmür. Yenə də səbəb və hədəf. Səbəblər sırasında subyektiv və obyektiv arqumentlər mövcuddur:

- Qərb bu yolla Şərqin zəngin sərvətinə yiyələnir - məsələn Ərəb baharından sonra neft ixracına görə sıralamanın ən sonunda yer alan Liviyanın neft ehtiyatlarının "axıntı istiqaməti" bəlli deyil;



- Silah alverini stimullaşdırır, paralel olaraq dağıtdığı Şərqin bərpası adı altında çirkli pullarını yuyur - faktlara müraciət edək, ABŞ 2019-2023-cü illərdə si-

### Məqsəd işğal deyil: xaos, anarxiya, qanunsuzluq, dövlətsizlik...

lah ixracını 17 faiz artırıb. ABŞ dünyada ümumi qlobal silah ixracının 42 faizini təşkil etməklə liderdir. Fransanın silah ixracının 34 faizi isə Yaxın Şərqdəki ölkələrin payına düşüb;

- Müharibələr Qərbə ucuz işçi qüvvəsi qazandırır. Uzun illərdir, Qərbin təbliğat predmetlərindən olan "qızıl milyard" artıq mövcuddur - "qanuni mühacirət" yollarını bağlayan Qərb, nə sirrdirsə qeyri-qanuni mühacirəti ticarətə çevirib. Təbii ki, burada orqan alveri, qadın alveri və narkotik alveri kimi qaranlıq məsələlərə də "toxunmaq" olar.
- Ən əsası müharibələr bitsə, "nehrə dayanacaq" - amma Qərb üçün ən sərfəlisi yüngül şəkildə də olsa "nehrənin çalxalanması"dır. Xaosun yaşandığı yerdə sabitlik olmaz, sabitliyin olmadığı yerdə isə qanun işləməz, qanunun işləmədiyi yerdə isə qeyri-insani maraqların təmini daha rahat şəkildə reallaşar. Beləliklə, qarşıdurmaların sürətini dəyişmədən "irəliləməsi" Qərb üçün ən sərfəli variantdır;
- Regionun tarixi dövlətləri daim sərhədlərindən narahat qalarlar. Çünki sərhəddə kimlərin dayandığı bəlli olmaz - bu, radikal dini qruplaşmalar da ola bilər, terror dəstələri də ola bilər, başqa dövlətlərin xüsusi kəşfiyyat birlikləri də ola bilər...

### Hədəf açıqlanmır: Qərbin tarixi "ağrısı"...

KİV-lərdə yayılan məlumatlarda bildirilir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 15-də "Fələstinin gələcəyi" adlı konfransda çıxışı zamanı deyib ki, Yaxın Şərqdəki müharibə Türkiyəyə yaxınlaşır. O bildirib ki, bununla bağlı bir risk var: "Biz bütün tədbirləri görürük". R.T.Ərdoğan, həmçinin söyləyib ki, müharibə yaxın zamanda dayanmayacağı təqdirdə daha da genişlənə bilər.

Təbii ki, yuxarıda qeyd edilən tezislərin hər birində bu və ya digər şəkildə Türkiyəyə aidiyyəti olan məsələlər yer almaqdadır. Bölgənin "tarixi imzası" kimi çıxış edən Türkiyənin son illərdəki yüksəliş yolu Qərb tərəfindən hərtərəfli şəkildə araşdırılır - müdafiə sənayesinin inkişafı, türkdilli dövlətlərin birləşməsində açar rollardan biri kimi çıxış etməsi, bölgədə yeni münasibətlər sisteminin qurulmasındakı fəal iştirakı, Azərbaycanla müttəfiqlik bəyannaməsinin imzalanması, Yaxın Şərqin stabilləşdirici faktoru olması diqqətdən yayınmayıb. Qərb açıq şəkildə qorxur. Qorxduğu qədər də tarixi "ağrısı" "sızıldayır". Türk dünyasının potensial qalxınması, birliyi və tərədaşlığı dünyaya yeni nizam qazandıracaq - bunun üfüqlərini hər kəsdən çox Qərb görməkdədir.

Sirr deyil ki, bir müddət öncə bölgədə tamam fərqli ab-hava hökm sürürdü - hətta bütün siyasi ekspertlər İsrail ilə Türkiyə arasında münasibətlərin inkişaf xəttinə qədəm qoymasından danışırdı. İsrail Prezidentinin Ankaraya səfəri özlüyündə bir çox regional suallara cavab verirdi. Türkiyə - İsrail əməkdaşlığı bölgədə yeni inkişaf xəritəsi yaradırdı. Artıq Yaxın Şərq də region olaraq xüsusi güc mərkəzi statusu qazanmaq yolunda irəliləyə bilərdi... Məhz belə bir məqamda kollektiv Qərbin "müdaxiləsi" prosesi tam şəkildə tormozladı və fərqli inkişaf xəttinə yönləndirdi. Bu inkişaf xətti isə... Sabitlikdən və sakitlikdən çox uzaqdır...

### Nə etməli: hər kəsin əli daş altında olsa...

Nə etməli? Bu ritorik suala hər dövlətin özünəməxsus cavabı ola bilər - amma bölgədəki dramatik situasiyadakı adrenalini azaltmaq üçün fərdi maraqlardan imtina edilməsi hər kəsin razılaşdığı məqamdır. Kollektiv Qərbin dünyanın fərqli bölgələrində apardığı destruktizmə qarşı səmimi münasibət sərgilənməlidir - Asiyanın və ya Afrikanın davranışları təxminən proqnozlaşdırıla bilər, Avropa özü haqda düşünməlidir. Çünki "köhnə qitə" sürətlə eniş aşağı yuvarlanmaqdadır. Mərkəzi Avropadakı müharibənin stimullaşdırılması paralel olaraq Yaxın Şərqdə də güc balansının pozulmasına yol açır. Güc balansının pozulması isə proseslərin birtərəfli inkişafına yol açır. Ən son nöqtədə şərti olaraq "qarşı tərəf"lə mübarizə və ya hansısa narahatlıq yaşamaq Avropanın "taleyinə" yazılmış yazıya çevriləcək - başqa sözlə, silahlar daha sərt şəkildə atəşə hazırlansa, heç kim yaxındakı "düşməni" qoyub, okean adlamaq "fikrinə" düşməyəcək...

**Pərviz SADAYOĞLU**

# Harris "səhvini" düzəltməyə çalışır...

## Tramp böyük fərqlə irəlidədir

ABŞ-da prezident seçkisi günü yaxınlaşdıqca vəziyyət kritik hal alır. Son günlərdə Respublikaçı namizəd Donald Trampın əsas ştatlarda sıçrayışla önə çıxması Demokratların seçki qərargahını düşüncəyə qərq edib. Xüsusilə, Trampın son debatdan imtinası və artıq seçkiyə start verildiyini bildirməsi Kamala Harrisi əvvəlki siyasi bəyanatlarına korrektə etmək məcburiyyətində qoyub. Belə ki, Harris Demokratların prezidentliyə namizədinin müəyyənləşdiyi qurultaydan bir həftə sonra prezidentliyə namizəd statusunda Ağ Evdə KİV-ə verdiyi ilk müsahibədə Baydenin siyasətini davam etdirəcəyini bildirmiş, sonradan isə bu fikri təkrarlamışdı. Amma...

### Harris fikrini "dəyişdi" - Bayden siyasəti davam etməyəcək...

Seçkiyə sayılı günlərin qaldığı bir zamanda Harrisin mövqeyində tam əksinə, dəyişiklik nəzərə çarpır - Demokratların prezidentliyə namizədi bu dəfə "Fox News" telekanalına müsahibəsində bildirib ki, seçkilərdə qalib gələcəyi təqdirdə onun prezidentliyi Ağ Evin hazırkı rəhbəri Co Baydenin kursundan kəskin fərqlənəcək. "Mən açıq deyim: mənim prezidentliyim Co Baydenin prezidentliyinin davamı olmayacaq. Vəzifəyə gələn hər bir yeni prezident kimi, mən də öz həyatımı, peşəkar təcrübəmi və yeni ideyalarımı özümlə gətirəcəyəm", - deyə Harris "Fox"-un siyasi şərhçisi Bret Bayerin sualını cavablandırıb. Vitse-prezident əlavə edib ki, onu Baydendən fərqləndirən cəhət karyerasının çox hissəsini Vaşinqtondan kənarda keçirməsidir. Harrisin öz sözləri ilə desək, o, özünü "yeni liderlər nəsli"nin nümayəndəsi hesab edir.

Bu fikirlər isə ABŞ-ın siyasi kluarlarında geniş müzakirələrə yol açıb. Bəziləri bu açıqlamanı Tramp-Harris debatındakı məğlubiyyətin təsdiqi, bəzi siyasi mütəxəssislər isə "son ümid" adlandırır. Əvvəlcə Baydenin prezidentliyi dövründə ABŞ-ın yaşadığı iqtisadi - siyasi geriləməni "davam etdirəcəyini" bildirməsi Harrisə ştatlardakı onlayn praymerizdə nə az-nə çox, 10 faizdən yuxarı səs itkisinə başa gəlmişdi. Əgər o vaxta qədər iki namizəd arasındakı səs faizi fərqli birrəqəmli idisə, artıq faiz fərqli ikirəqəmlidir.

### Prezident "ağrıyır", vitse - prezident "inanmır"...

Harrisin bu "siyasi səhvi" isə Trampın qərargahı üçün göydəndüşmə fürsət olub. Respublikaçıların seçki kampaniyasının sözçüsü Karollin Leavit Harrisin Bayerə müsahibəsini şərh edərkən onu fəlakət adlandırıb. Leavitin sözlərinə görə, Kamala Harris suallara adekvat cavab verə bilməyib.

ABŞ-ın Axios portalı isə Harrisin mövqe dəyişikliyinin gizli səbəbini açıqlayıb. Portal Co Bayden ilə Kamala Harrisin komandaları arasında artıq fikir ayrılıqlarının yarandığını yazıb. Harris Baydenin seçki kampaniyası dövründəki görüşlərdə iştirak etməməsini qısqanclıq adlandırıb və bunu hazırkı prezidentin tin aşağı reytinqi ilə əlaqələndirib. Bəzi mənbələr isə Baydenin səhhətindəki gerilənmə səbəbindən bu görüşlərə çıxmadığını yazır.



### KİV-in seçimi... Eks-prezident açıq fərq yaradıb...

Harrisin son görüşləri 2008-ci ildən bəri Demokratların qalib gələ bilmədikləri Şimali Karolinada keçirilib. "Politico" qeyd edir ki, eyni zamanda Tramp Arizonada mitinq keçirib. Artıq bir neçə ştatda erkən səsvermə başlayıb və Tramp seçiciləri bu təcrübədən yararlanmağa çağırıb. Kamala Harris isə dinləyicilərinə etiraf edib ki, seçki gününə qədər gərgin mübarizə olacaq.

CNN isə seçkiyə üç həftə qalmasına baxmayaraq Harrisi məğlub saymır - halbuki, televiziyanın keçirdiyi sorğuda iştirakçıların təxminən 60 faizi Co Baydenin prezidentlik dövründən narazı olduğunu bildirib. Bu sorğularda Harris seçki kampaniyası zamanı Baydenin proqramından fərqli ideyalar təklif edə bilməməkdə günahlandırılıb.

### Tramp komanda yığır - İlon Mask nazir olacaq...

Bu arada prezidentliyə namizədlərin administrasiyalarının üzvlərinin kimliyi haqda məlumatlar yayılır. Adını açıqlamayan respublikaçı siyasətçinin "Washington Examiner"ə verdiyi məlumata görə, Donald Trampın elan edilmiş komandası tələsik yaradılmışdı - artıq seçki qərargahı bəzi "səhvləri" düzəldir. 2024-cü ilin əvvəlindən seçki qərargahının iki rəhbəri - Kris Laçivita və Suzi Ualz qəti və intizamlı namizədləri seçməklə vəzifələndiriliblər. Avqust ayında isə siyasətçi və milyarder, "Cantor Fitzgerald" maliyyə şirkətinin baş direktoru Hovard Lyutnik keçid komandasının rəhbəri təyin edilib. Komandaya həmçinin Nümayəndələr Palatasının keçmiş üzvü Tulsi Qabbard, prezidentliyə keçmiş namizəd kiçik Robert Kennedi də daxildir. Qabbard beynəlxalq münasibətlər üzrə mütəxəssis sayılır, kiçik Kennedi isə ictimai səhiyyə sistemində təmsil olunacaq. Yeni "administrasiyanın" yüksək rütbəli əməkdaşları arasında keçmiş müşavir Stiven Miller, məşhur radikal sağçı media nümayəndəsi Stiv Bennon və baş prokurorun keçmiş köməkçisi Cefri Klark yer alır. Milyarder İlon Maskın isə Tramp administrasiyasında "Xərclərin azaldılması naziri" təyin edilməsi planlaşdırılır.

Dövlət Departamentinin rəhbəri vəzifəsinə isə bir neçə namizəd var - "The Hill" və "The Times" əsas namizəd kimi Senatın Xarici Əlaqələr Komitəsinin üzvü Marko Rubionun adını çəkir. Namizədlər arasında həmçinin senator Tom Kottonun da adı çəkilir. O yeni komandada müdafiə naziri də ola bilər.

2020-2021-ci illərdə Milli Kəşfiyyat İdarəsinə rəhbərlik etmiş Con Ratkliff isə öz köhnə vəzifəsinə yenidən qovuşma gününü gözləyir. "The Times" mənbələrinin məlumatına görə, keçmiş vitse-prezident Mayk Pensin müşaviri vəzifəsində çalışmış general Kit Kelloq da bu vəzifəyə təyinat ala biləcək namizədlər arasındadır.

# Bukmeker kontorları prezidenti "açıqladı": Donald Tramp 60 faizlə liderdir

## Yeni komandaların siyahısı bəlli oldu

### Milyardlarla mərc qoyulub... Tramp 53 faizlə kontorların lideridir

Prezidentlik yarışının finişi Amerikanın bukmeker kontorları tərəfindən də maraqla izlənir və göstəricilər deməl olar ki, gündəlik dəyişir. Artıq uzun müddətdir ki, bukmeker kontorlarının dəyərləndirməsinə görə Donald Trampın prezidentlik yarışında qalib gəlmə ehtimalı böyükdür - Respublikaçı namizədin şansı 53 faiz qiymətləndirilir. Bukmeker kontorlarının bu qədər açıq fərqi əks etdirən rəyi isə nadir hallarda görünür - seçki bukmekerliyi ilə məşğul olan "Betting Odds aqreqator" portalı Kamala Harrisin şansını 46 faiz şəklində dəyərləndirir. İxtisaslaşdırılmış saytlarda mərclər milyonlarla dollar təşkil edir, bəzi resurslarda isə bir milyardı keçir. Diqqətçəkən məqam isə Trampın yarışda bu qədər açıq fərqlə önə çıxmasının tarixidir - məhz Harrisin bir neçə gün öncə yenidən Baydenin siyasətini davam etdirəcəyini bildirməsi rəqəmlərə kəskin təsir etmişdi.

"Election Betting Odds" portalı isə ölkənin mərkəzi hissəsinin bütünlüklə Trampı dəstəklədiyini, Respublikaçı namizədə rəğbət bəslədiyini yazıb. "Reuters"in məlumatına görə, Trampın ABŞ seçiciləri arasında reytinqinin birdən-birə yüksəlməsi onun qeyri-qanuni miqrasiya ilə bağlı qətiyyətli fikirlər səsləndirməsi ilə irəli gəlib. Bu, seçicilər üçün ən həssas məsələ olaraq qalır və sorğulara əsasən, amerikalıların əksəriyyəti Trampın bu işlə daha yaxşı məşğul olacağına inanır. Xüsusilə, kampaniyanın son həftələrində o, ritorikasını xeyli sərtləşdirib - cinayətlərdə iştirakçı olan qeyri-qanuni immiqrantları "iyrənc heyvanlar" adlandıraraq ABŞ vətəndaşının öldürülməsi ilə bağlı cinayətkarlara ölüm hökmünün tətbiqini tələb edir.

### Harrisin "kilid adamı" - yeni komandanın köhnə üzvləri...

Demokratların formalaşdırdığı kabinetin ən pik nöqtəsində isə soyuqqanlığı ilə ad çıxarmış məşhur Fil Qordon yer alır - Harris seçiləcəyi təqdirdə Qordan ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə əsas yardımçısı, müşaviri olacaq. Harris öz komandasında daha çox gənclərə üstünlük verib - "Axios" vitse-prezidentə yaxın mənbələrə istinadən yazır ki, Harris qalib gəlsə, yeni komandanın nümayəndələri arasında etnik azlıqların da təmsilçiləri yer alacaq. Xarici Əlaqələr Komitəsinin üzvü senator Kris Kunsun dövlət katibi vəzifəsinə namizədliyi nəzərdə tutulur. "Axios" MKİ direktoru Bill Bernsin və milli təhlükəsizlik üzrə hazırkı müşavir Cek Salivanın da adının yeni siyahıda olduğunu bildirir. Müdafiə Nazirliyinə isə Barak Obamanın prezidentliyi dövründə müdafiə nazirinin müavini işləmiş Mişel Flurnoy rəhbərlik edə bilər. Bu, baş verəcəyi təqdirdə Flurnoy Pentaqona rəhbərlik edən ilk qadın kimi tarixə düşəcək.

Əksər nəşrlər Harrisin komandasının "kilid adamı" kimi Fil Qordonun adını çəkir. Barak Obama və Bill Klinton administrasiyalarında çalışmış Qordon Avropa üzrə ekspertdir və Yaxın Şərqdə də böyük təcrübəyə malikdir. O, Rusiyaya qarşı sərt mövqeyi ilə tanınır. "The Wall Street Journal" yazır ki, 61 yaşlı siyasətçi milli təhlükəsizlik müşaviri təyin edilərsə, Avropa və Yaxın Şərq məsələlərinə böyük təsir göstərə bilər.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Şənbə üçün nəzm

# Mehmanxana xidmətçisi



*Məmməd Araz*

Orta yaşlı, çox şirindil bir qadındı,
Elə belə soruşdum ki, “adın nədir?”
Çox sevincək:
- Asuriyadır - dedi - adım,
Ad soruşan qonaqlardan xoşum gəlir...
- Ad soruşan qonaqlardan...
Elə niyə?
- Keçmişimi oyadıram bu sualla.
Baş əyirəm “qədim dövlət” bir mücrüyə,
Keçmişimə qayıdıram bu sualla.
Asuriya! Özü yoxdur, adı mənəm,
İndi sönmüş bir ocağı üfürürəm...
Qəhərini boğa-boğa gedir qadın,
Bəzəkli bir mücrü ilə dönür geri,
Elə bil ki, ilk övladı, son övladı
Bu mücrüdür, qucağından qoymur yerə.
- Aysorların tarixidir bu sandıqça,
Gərək sənə üç min ildən söhbət açam...
Faytonlara şir qoşublar, bir yaxşı bax,
Bu pullara həkk olunub o zamanlar;
Çoxlarına gülünc gəlir bu yanşımaq,
İndi məni mən olmayan çətin anlar.
Assur adlı şəhər olub paytaxtımız,
Qızıl kərpic döşənərmiş küçələrə,
Sonra Kalxu şəhərində son taxtımız
Xatmurani səltənəti çöküb yerə.
Bir əbədi yırtıcılar, bir də - dedi -
Mütilərdir tarix boyu yurdsuz qalan.
Hərdən belə ürəyimi bu qəm didir:
Gərək axı uçmayaydı mənim qalam.
- Gərək axı... gərəklərə qalsa gərək
“Avesta” da yanmayaydı,
Babəkin qılıncı oğurlanmayaydı.
Onda gərək günəş özü
Yetişəydi Nəsiminin imdadına,
İldırımlar qoşulaydı inadına...
“Gərəklərin” tarixini yazmır tarix;
Onda kağız, qələm olur, ürək olmur.
Tarix, qanla yazanda da kövrək olmur.
Min il ağla, ağlayana torpaq vermir.
Versə, versə ümid verir, bayraq vermir.
Axı taxta çıxanların öz məntiqi,
Onu vurub yıxanların öz məntiqi,
Bu tarixi yazanların öz məntiqi,
Onu cırıb-pozanların öz məntiqi...
Bəzən olub:
İgidləri doğanlar da alqışlanıb,
Körpələri boğanlar da alqışlanıb...
Yer üzündə Asuriya olub bir vaxt,
Bacım, indi keçən keçib, olan olub.
Öz yerinə sancılanda neçə bayraq
Gözgörəti talan olub,
Yalan olub...
Baş əyirəm, müqəddəsdir qızıl mücrün,
Asuriya dönən deyil ağlamaqla.
Tale sənə bir süpürgə verib bu gün;
Bax beləcə, otaqları təmiz saxla...

**1973**

# 43 illik zəngin tarix...

## 20 oktyabr Energetiklər Günüdür

*Yeganə BAYRAMOVA*

Oktyabrın 20-si Azərbaycanda Energetiklər Günüdür. Artıq 20 ildir ki, Azərbaycan energetikləri oktyabrın 20-sini özlərinin peşə bayramları kimi qeyd edirlər. Bu gün ölkəmizin həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar hadisə ilə bağlıdır: 43 il əvvəl, 1981-ci il oktyabrın 20-də “Azərbaycan” istilik elektrik stansiyasının (İES) birinci enerji bloku Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilib. Bununla da Azərbaycan elektroenergetikasının inkişafında yeni mərhələnin əsası qoyulub. Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə həmin tarixin ölkəmizdə Energetiklər Günü kimi təsis edilməsi milli elektroenergetika salnaməmizin daha bir parlaq səhifəsi, ölkə rəhbərliyinin bu sahədə çalışan insanların fədakar əməyinə verdiyi böyük dəyərin ifadəsidir.

Məlum olduğu kimi, Yer kürəsində iki növ enerji mənbəyi mövcuddur: bərpa olunan və bərpa olunmayan. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı külək enerjisi, günəş enerjisi, biofenerji potensialı, dağ çaylarının potensialı üzrə çox yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

**Enerji təhlükəsizliyimizin təminatına 100 faiz nail olmuşuq**

Ölkə başçısı tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanın güclənməsinə və qüdrətlənməsinə yönəlib. Prezidentin təşəbbüsü və rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektroenergetika üzrə də mükəmməl proqramlar qəbul edilərək reallaşdırılıb. “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planına uyğun olaraq, hazırda yaxın və uzaq perspektivdə nəzərdə tutulmuş vəzifələrin icrası ilə bağlı müvafiq işlər görülür. Eyni zamanda, enerji sisteminin müasirləşdirilməsi nəzərdən keçirilir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti sovet dövründə və müstəqillik illərində bu sahədə görülmüş işləri, əldə edilmiş nəticələri nəinki məntiqi cəhətdən tamamlayır, eyni zamanda, elektroenergetika sisteminin müasir qlobal trendlərə uyğun inkişafını təmin edir. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, öz potensialı hesabına enerji təhlükəsizliyinin təminatına 100 faiz nail ola bilib.

**Azad olunmuş ərazilərimizdə işıqlı günlər**

Elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı dövlət proqramlarının icrası nəticəsində Azərbaycan daxili enerji tələbatının ödənilməsi ilə bərabər, elektrik enerjisinin ixracına da nail olub. Energetika sektorunda həyata keçirilən kompleks tədbirlər hesabına ötən ilin yanvar-sentyabr aylarında Bakı şəhərində “Şimal” Kiçik Su Elektrik Stansiyası, Cəbrayıl rayonunda “Cəbrayıl” qovşaq elektrik yarımstansiyası, Xocavənd rayonunda “Hadrut” qovşaq yarımstansiyası, Kəlbəcər rayonunda “Qamışlı” və “Meydan” Kiçik Su Elektrik stansiyaları, “Çıraq-1” və “Çıraq-2” Kiçik Su Elektrik stansiyaları, “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyası, Laçın rayonunda “Qorçu” yarımstansiyası, “Laçın” şəhər yarımstansiyası, Laçın rayonunda “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyaları, Zəngilan rayonunda “Cahangirbəyli” Su Elektrik Stansiyası istifadəyə verilib.

Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə “Çıraq-1” və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə “Çıraq-2” Kiçik



Su Elektrik stansiyaları “AzərEnerji” ASC tərəfindən tamamilə yenidən qurulub. “Çıraq-1” və “Çıraq-2” stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb.

Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” Su Elektrik stansiyaları prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tam yenidən qurulub. “Mişni” Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 7,2 kilometr uzunluğunda derivasiya boru xətti və maşın zalı yenidən qurulub.

Torpaqlarımızın işğaldan azad edilməsi qarşımızda yeni vəzifələr, fəaliyyət planları müəyyənləşdirir. Energetiklərimiz azad edilmiş torpaqlarımızdakı hər evə qayıdış planına uyğun olaraq işıq, enerji, həyat gətirmək üçün daha böyük əzmlə çalışırlar.

**2030-cu ilədək...**

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, energetika sisteminin səmərəliliyinin artırılması və mərhələli şəkildə liberal bazar modelinə keçilməsi Prezidentin rəhbərliyi ilə aparılan islahatlar prosesinin hədəfləridir. Dövlət başçısının “Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli, “Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında” 2019-cu il 5 dekabr tarixli sərəncamları, eləcə də 2020-ci il 22 sentyabr tarixli fərmanı ilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin yaradılması energetika sektorunda əsaslı dəyişikliklərə yüksək səviyyədə təminat verilir. Bu gün əsas məqsəd Azərbaycan Prezidenti tərəfindən qarşımıza qoyulmuş vəzifələrə uyğun olaraq, 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri hesabına 1500 meqavat əlavə güc yaratmaqla elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payını 30 faizə çatdırmaqdır.

Görülən işlər dövlət başçısının həyata keçirdiyi çoxşaxəli inkişaf siyasətinin və bu siyasətdən irəli gələn vəzifələri energetika sektorunda layiqincə yerinə yetirən Azərbaycan energetiklərinin çətin və şərəfli əməyinin bəhrəsidir. Bütün bu reallıqlar gələcəyə daha nikbin baxmağa əsas yaradır.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.




# İnformatika üzrə olimpiadalara hazırlıq qruplarına seçmə imtahanlar keçirilib

“Azercell” məktəblilərimizin İT sahəsində inkişafına dəstəyini davam etdirir.

12 oktyabr 2024-cü il tarixində Bakı Ali Neft Məktəbində və Naxçıvan Muxtar Respublikasında informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq qruplarına seçmə imtahanlar təşkil olunub. 2023-2024 tədris ilində Respublika Fənn olimpiadalarının informatika fənni üzrə final mərhələsinə yüksələn şagirdlər seçim mərhələsində iştirak etmək hüququ qazanıblar.

İmtahan EJOI (Yeniyetmələrin Avropa İnformatika Olimpiadası), EGOI (Avropa Qızlar İnformatika Olimpiadası), həmçinin IOI (Beynəlxalq İnformatika Olimpiadası) hazırlıq komandasına daxil olmaq istəyən şagirdlər arasında keçirilib.

Məktəblilər 4 saat ərzində 3 məsələ həll ediblər. Hər bir iştirakçının nəticəsi avtomatik qiymətləndirmə sistemi vasitəsilə dərhal müəyyən edilib.

2017-ci ildən etibarən “Azercell Telekom” MMC-nin Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlığı çərçivəsində informatika olimpiadalarına hazırlıq prosesi təşkil olunur. Bu müddət ərzində gənclərimiz mütəmadi olaraq ölkəmizi beynəlxalq səviyyəli müsabiqələrdə təmsil ediblər. Müxtəlif yaş qrupları üzrə proqramlaşdırma olimpiadalarında Azərbaycan komandasının qazandığı ümumi medal sayı 80-ə çatıb.

# “Bakcell” BMT-nin Qlobal Sazişinə qoşulub

İnnovasiya və sürət lideri “Bakcell” BMT-nin Qlobal Sazişinə (United Nations Global Compact) qoşulub. Bununla bağlı “Bakcell”in baş icraçı direktoru Klaus Müller və BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov arasında memorandum imzalanıb.

Klaus Müller bildirib ki, təşəbbüsə qoşulmaqla şirkət dayanıqlı inkişaf və sosial məsuliyyət prinsiplərinə sadiqliyini nümayiş etdirir: “BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət strategiyamızın əsasını təşkil edir. Qlobal Sazişin 10 prinsipini tətbiq etməklə ekoloji, sosial və korporativ idarəetmə sahələrində fəaliyyətimizi daha da təkmilləşdirəcəyik”.

“BMT-nin Qlobal Sazişinə qoşulmaqla “Bakcell” dayanıqlı gələcəyə töhfə vermək öhdəliyini bir daha təsdiqləyir. Bu, hər kəs üçün daha yaxşı bir gələcək qurmaq məqsədilə ictimai bir vəddir - tərəfdaşlara, səhmdarlara, təchizatçılara, işçilərə, müştərilərə və gələcək nəsillərə verilmiş bir öhdəlik. “Bakcell” sözünə sadiq korporativ şirkət kimi tanınır. Texnologiya dayanıqlığın əsas təminatçılarından biridir və yenilikçi bir şirkət olaraq “Bakcell”, fərdlər, icmalar və sənayelər üçün daha yaxşı, məsuliyyətli və qayğıkeş həyat tərzi yaratmaq məqsədilə texnologiyanı əlçatan etməyə mühüm töhfə verəcək”, - deyə Samir Məmmədov bildirib.




Qeyd edək ki, “Bakcell” işğaldan azad olunmuş bölgələr də daxil olmaqla, ölkə ərazisində keçirdiyi müxtəlif innovativ layihələrlə iqtisadiyyatın inkişafına, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə çatmasına töhfə verir. “Bakcell”in ətraf mühitin qorunması istiqamətində atdığı addımlar enerji istehlakı və elektron tullantıların ətraf mühitə təsirinin azaldılmasını, həmçinin bərpa olunan enerji mənbələrindən daha geniş şəkildə istifadəni hədəfləyir. Belə ki, şirkət eSIM texnologiyasının tətbiqi ilə plastik tullantıları azaldır, həmçinin bərpa olunan enerji ilə işləyən stansiyalarla bağlı pilot layihə həyata keçirir. Bundan əlavə, şirkət həyata keçirdiyi “FLEXcellence” proqramı vasitəsilə hibrid iş rejimini təşviq edir. Bu isə öz növbəsində əməkdaşların enerji və vaxt itkisini azaldır, onların iş və şəxsi həyatları arasında balansı təmin etməsinə kömək edir.

BMT-nin Qlobal Sazişi dünyada dayanıqlı inkişaf və sosial məsuliyyət sahəsində ən böyük beynəlxalq təşəbbüsdür. Hazırda Qlobal Sazişin iştirakçıları sırasında 160-dan çox ölkədən 20 mindən çox təşkilat yer alır. Təşəbbüs üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və “Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi”nə uyğunlaşdırmaqdır.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## *İdman*

# Avarçəkənlərimiz “Mingəçevir Reqatası”nı 24 medalla başa vurublar



Azərbaycan avarçəkənləri “Mingəçevir Reqatası-2024” beynəlxalq turnirinin son günündə 13 medal qazanıblar.

AZƏRTAC xəbər verir ki, akademik növdə Azər İlyasov-Tunar Məmmədzadə və Nurlan Paşayev-Cahangir Məmmədli cütləri qızıl medal qazanıblar. Sabit Abdullayev-Fikrət Həsənov və Məhəmməd Niftullayev-Nemət Həsənov dueti isə müvafiq olaraq, 2 və 3-cü yerləri tutublar. Həmin idmançılar 1500 metr məsafədə fərqləniblər.

Kayakda Niyaz Məlikov-Emil Zeynalov cütü gümüş, Qiyas Əhmədov-Sübhan Həsənov cütü isə bürünc medal əldə edib. Tək nəfərlik kayak qayığında Amil Ramazanov gümüş medala sahib çıxıb. Bu idmançılar 1000 metr məsafəyə yarışda mükafatçılar sırasına düşüblər.

Qiyas Əhmədov-Sübhan Həsənov cütü iki nəfərlik kayak qayığı ilə 200 metr məsafədə finişə birinci çatıb. Eyni məsafədə İbrahim Məmmədzadə -Elmir Tarverdiyev cütü isə üçüncü olub.

Vacib Babayev-Şahin İsayev və İvan Vorobyanski-Hüseyn Həsənov 200 metr məsafədə gümüş medallara yiyələniblər.

1000 metr məsafəyə akademik avarçəkmədə (2010-2011) Məhəmməd Həsənov-Raul Şamilov dueti gümüş, Yusif Əliyev-Ruslan Fərəcov cütü bürünc mükafat qazanıblar.

Bununla da Azərbaycan avarçəkənləri yarışı ümumilikdə 24 (6 qızıl, 9 gümüş və 9 bürünc) medalla başa vurublar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4804**
**Sifariş: 2395**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli